DOI: 10.36719/AEM/2007-2020/53/44-47

**Fidan Ağasəlim qızı Abdullayeva**
Bakı Dövlət Universiteti
fidanazmammadova@gmail.com

# ORQAN BANKININ YARADILMASININ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *insan orqanı və toxumaları, transplantasiya, donor kartı, donor, resipiyent, insan sağlamlığı, donor bankı, beyin ölümü, orqan bankı*

***Key words:*** *human organs and tissue, transplantation, donor card, donor, recipient, health, donor bank, brain death, organ bank*

***Ключевые слова:*** *человечуеские органы и ткани, трансплантация, донорская карточка, донор, реципиент, здоровье, банк доноров, смерть мозга, банк органов*

İnsanın öz fəaliyyətini tam həyata keçirə bilməsi üçün o fiziki cəhətdən sağlam olmalıdır. Səhhətdə yaranan problemlər nəticəsində həyata keçirilinən hər bir hərəkət öz faydalılığını tam göstərə bilmir. Xarici dövlətlərdə orqana ehtiyacı olan şəxslərin tələbatını ödəmək üçün orqan bankları yaradılır və onların hüquqi bazaları təşkil olunur. Orqan bankları əksər hallarda xüsusi olaraq yaradılmış Orqan fondlarında mərkəzləşdirilir.

Orqanların və toxumaların bağışlanması ilə bağlı olaraq qəbul edilmiş rəsmi sənədlərin tarixi ötən əsrə söykənir. Bu rəsmi sənədlərdən biri 1968 - Vahid Anatomik Bağışlama Qanunu (The Uniform Anatomical Gift Act), hər bir yurisdiksiyada qəbul üçün nəzərdə tutulmuş bir nümunəvi əsasnamədir. Bu qanunun icrası ilə insan orqan və toxumalarının transplantasiya üçün bağışlana biləcəyi hüquqi əsası təmin etdi. Qanuna əsasən ölümdən əvvəl orqanı bağışlamaq üçün insanın qanuni razılığı qəbul edilirdi. 1973-cü il tarixli Xalq Qanunu 92-603, 30 Oktyabr 1972-ci il tarixli Xroniki böyrək xəstəliyi olan bəzi şəxslərə "Medicare" əhatə dairəsini genişləndirmək üçün Sosial Təhlükəsizlik Qanununda dəyişiklik edildi. Bu cür şəxslər Medicare yəni, tibbi qayğıya ehtiyac duyan şəxslər qanunun A və B hissələrində əhatə olunmaq üçün əlil hesab edildi.(1)

1978-ci il tarixli Vahid Beyin Ölümü haqqında Qanun (The Uniform Brain Death Act) - hər bir yurisdiksiyada qəbul edilməsi üçün nəzərdə tutulmuş nümunəvi bir əsasnamə idi. Bu model qanun beynin sümükləri də daxil olmaqla beynin bütün fəaliyyətinin dönməz dayandırılmasının ölüm olduğunu təsbit etdi. 1980-ci il tarixli Ölümün vahid tərifi haqqında qanun (The Uniform Determination of Death Act) -bütün yurisdiksiyalarda qəbul üçün nəzərdə tutulmuş tipik qanundur, hansı ki, beynin ölümü haqqında vahid Qanunu (hansı ki, ölümün müəyyən edilməsinin ənənəvi meyarları nəzərə alınmırdı) əvəz etmişdir. Qanunda deyilir ki, qan dövranının və ya tənəffüsün dönməz dayandırılması və ya beyin gövdəsi də daxil olmaqla, bütün beyin funksiyaları dönməz olaraq dayanmış olan şəxs ölüdür. Ölümün müəyyən edilməsi qəbul edilmiş tibbi standartlara uyğun həyata keçirilməlidir. 1984-cü il tarixli İctimai hüquq (98-507), orqan transplantasiyası üzrə milli qanun (The National Organ Transplant Act), 19 oktyabr 1984-cü il-orqan transplantasiyası üzrə məqsədli iş qrupunun yaradılmasını nəzərdə tuturdu, Səhiyyə və sosial xidmətlər nazirinə orqan satınalma təşkilatları üçün qrant vermək səlahiyyətini verdi, Səhiyyə və sosial xidmətlər naziri tərəfindən qanun əsasında idarə olunacaq Orqan satınalma və transplantasiyası şəbəkəsini (Organ Procurement and Transplantation Network) yaratdı, transipientlərin elmi reyestrini yaratdı və bu fəaliyyətin idarə olunması üçün Səhiyyə və sosial xidmətlər departamentində bir inzibati vahid yaratdı. Orqan transplantasiyası üzrə milli qanununun 301-ci maddəsində orqanların transplantasiya üçün dəyərli nəzərdən keçirilməsi üçün dəyişdirilməsinə qarşı cinayət qadağası daxil edilmişdir.(2)

Qəbul edilmiş rəsmi sənədlərin tələblərini həyata keçirmək üçün dövlətlət tərəfindən orqan nəqli fondları yaradılmışdır. Bunlardan biri də Türkiyədə fəaliyyət göstərən Orqan nəqli fondudur (Turkish Transplant Foundation). 1995-ci ildən böyrəklərin köçürülməsi və diyaliz xəstələrinə xidmət göstərmək üçün yaradılmışdır. 2013-cü ildən Oqan Nəqli Fondu adlandırılmağa başlamışdır. Bütün komponentlərlə işləmək və orqan nəqli sahəsində fəaliyyət göstərən bir qeyri-hökumət təşkilatı olmağın sosial məsuliyyətini dərk edərək ölkədə və dünyada ən yüksək səviyyədə orqan transplantasiyası xidmətlərinin inkişafına töhfə vermək fondun başlıca məqsədidir. Orqan bağışlama və transplantasiya sahəsi bugün səhiyyə xidmətinin ən çox tənzimlənən sahələrindən biridir. Həm dövlət, həm də federal qanunvericilik, bağışlanan orqanların bölüşdürülməsi, paylanması və transplantasiyası üçün ən təhlükəsiz və ən ədalətli bir sistem təmin edilməsi üçün tətbiq edilmişdir. (3)

Transplantasiya cəmiyyəti Ümumdünya Səhiyyə Təşkilatı ilə rəsmi əlaqədədir və alıcılar, canlı donorlar üçün hesabatlar üzərində işləyir. Transplantasiyanın faydaları uzunmüddətli dörvdə qiymətləndirilməlidir. Türkiyədə orqan və toxuma alınması, saxlanılması və nəqli haqqında qanunun 1979-cu ildə qəbul edilmişdir. Qarşlıqlı və ya hər hansı bir işin, xidmətin göstərilməsinin əvəzində orqan və toxumanın alınması və satılması qadağandır. Bu qanunun 6-cı maddəsində 18 yaşını tamamlamış anlaqlı olan hər bir şəxsdən orqan və toxumaların götürülə bilməsi üçün donorun ən azı iki şahidlə açıq, şüurlu və təsirdən uzaq olaraq əvvəlcədən verilmiş yazılı və imzalı və ya ən azı iki şahid qabağında şifahi olaraq elan edib imzaladığı sənədin bir həkim tərəfindən təsdiqlənməsi məcburidir. 5-ci maddəsində isə 18 yaşını tamamlamamış və tam fəaliyyət qabiliyyəti olmayan şəxslərdən orqan və toxumaların götürülməsi qadağandır. Donorun həyatına ciddi surətdə təsir edəcək, sonlandıracaq və ya təhlükəyə salacaq orqan və toxumaların götürülməsi qadağandır. Orqan və toxumanın götürülməsi, hazırlanılması və nəqlindən əvvəl donor və resipiyentin həyatı və sağlamlığı üçün baş verə biləcək təhlükələri azaltmaq məqsədilə lazımlı tibbi araşdırma və diaqnozların edilməsi və nəticəsinin bir mümkünlük sənədi ilə təsdiqlənməsi məcburidir. Orqan və toxumanın götürülməsi, köçürülməsi, saxlanılması və nəqli ilə ölkə xaricində təmin olunması Səhiyyə Nazirliyi tərəfindən səlahiyyət verilmiş lazımlı, ixtisaslaşmış tibbi təhcizata sahib müəsissələrdə aparılır. 11-ci maddəyə əsasən bu qanunun tətbiqi ilə əlaqədar olaraq tibbi ölümün həyata keçirilməsinə bir nevroloq və ya neyrocərahiyyə, bir də anestizioloq və reanimasiya və ya reanimasiya mütəxəsissindən təşkil olunan iki həkim tərəfindən sübuta arxalanan tibb qaydalarına uyğun olaraq səs birliyi ilə qərar qəbul edilir. Qanuna əlavə maddə olaraq qeyd olunmuş normaya əsasən isə uşaq sahibi olmağın təbii yolu olmadığı hallarda və ya tibbi ehtiyac, qadınların və ya kişilərin çoxalması tibbi üsullarla mayalanma və bədənin daxilində və ya xaricində hüceyrələr, reproduktiv hücüyrələr və ya embrionlar başqasına aid çoxalma hüceyrəsi və (və ya) embriyonun istifadə olunması məqsədilə donor işlərinin həyata keçirilməsi və bu məqsədlə çoxalma hüceyrəsi və ya embrionun bağışlanması, satılması, saxlanılması, istifadəsi, daşınması qadağandır. Ər-arvaddan biri və ya hər ikisindən alınan çoxalma hüceyrələrindən əldə edilən embriyonun başqa şəxslər tətbiq ilə uşaq sahibi olmaq və daşıyıcı analıq da qanunvericiliklə qadağandır. Digər bir əlavə maddədə əks olmuşdur ki, canlı donordan orqan nəqli, alıcının (donorun) ən az iki ildən bəri evli olduğu yoldaşı (ər/arvad) ilə dördüncü dərəcəyə qədər, dördüncü dərəcə də daxil olmaqla köçürülmə edilə bilər. Orqan nəqlinə ehtiyac (zərurət) evləndikdən sonra aşkar olunmuşdursa (ər/arvad) ən azı iki illik evli olma şərti gərəkli deyil. (5)

Türkiyədə 75 ədəd orqan nəqli mərkəzi var və bunların sayı artmaqdadır.Orqan nəqli estetik əməliyyatlar siyahısına aid deyil, onun kimi deyil. Oqan nəqlinin həyata keçirilməsi prosedurdur. Xəstənin orqan nəqlinə hazırlanması, əməliyyatın həyata keçirilməsi, əməliyyat sonrasında tərəflərin sonrakı səhhətinin izlənilməsini əhatə edir.Bu bir prosesdir və bunun içində bir çox peşə qrupu yer alır. Bu işi vicdanla yerinə yetirməlidirlər.

Müasir texnoloji qurğuların və peşəkar işçi heyətinin köməyi ilə tibbi və etik qaydalara, mənəvi dəyərlərə və digər sosial normalara cavab verən təsirli, əlçatan və davamlı bir sistemdə təbliğ etməyi və nəqlə ehtiyacı olan xəstələrə daha çox həyat imkanlarını təmin etmək üçün orqan nəqli xidmətlərini inkişaf etdirməyi hədəfləyən bu fond inkişaf etməkdədir.

14 dekabr 2006-cı il tarixli Türkiyə Diyanət İşləri Müdirliyinin Diyanət İşləri Ali Şurası şəxsin süni yaşama aparatından çıxarılması islama görə, öz canına qıymağı qadağan olunduğu kimi, tibbi məlumatlara görə yaşamaq ümidi qalmamış və ya şiddətli ağrılar hiss edən bir şəxsin başqa birinin əli ilə həyatına son verilməsi qadağandır. Evtanaziya digər dinlərdə olduğu kimi islam dinində də qadağandır. Bu qanuna əsasən yalnız 2 halda şəxsin süni yaşama aparatından çıxarılmağına icazə verilir. Beyin bütün funksiyalarını itirdiyi halda və pasiyentin bu vəziyyətdən geri dönməyinin mümkün olmağının həkim kollektivi tərəfindən təsdiq olunduğu hallarda yol verilir. (6)

Orqan nəqlinin islam dinində caiz olduğu halların dairəsi müəyyən olunmuşdur. Bunlara aiddir:

1. Xəstənin həyatını və ya həyat üçün əhəmiyyətli olan üzvünün xilas edilməsi üçün başqa bir çıxış yolu olmadıqda;
2. Xəstənin bu yolla müalicə oluna biləcəyinə dair həkim tərəfindən qərar verildiyi halda;
3. Orqan və ya toxuma verəcək donorun əməliyyatın həyata keçirildiyi zaman ölmüş olması;
4. Orqan və ya toxumanı verəcək donorun həyatı və sağlamlığı üçün heç bir təhlükə yaranmayacağı hallarda
5. Cəmiyyətin əmin-amanlığının və nizamının pozulmasının qarşısını almaq üçün çıxarılacaq orqan və ya toxumanın şəxsin ölümündən əvvəl buna razı olması haqqında yazılı ifadəsinin olduğu hallarda;
6. Köçürüləcək orqan və ya toxualardan heç bir fayda, mənfəətin götürülməsinə qadağandır. Əvəzsiz və könüllü qaydada həyata keçirilməlidir;
7. Xəstənin müalicəyə razılığının olması halında;

3 mart 1980-ci il tarixli Hacettepe Universitetinin Tibb fakültəsinin müəllimi Dos.Dr.Mehmet Haberalın "Ölmüş şəxslərdən götürüləcək orqan və toxumalardan müalicəsi yalnız bu şəkildə həyata keçirilə biləcək xəstələrə transplantasiya məsələsində nazirlik tərəfindən verilən sorğu Dəyanət İşləri Nazirliyi Din işlərinin Ali Komitəsi tərəfindən araşdırılmışdır. Müzakirə nəticəsincə Qurani-Kərim və hədislərdə orqan və toxuma köçürülməsi məsələsinə aid bir hökm yoxdur. Həmin dövrdə belə bir məsələ mövcud olmadığı üçün bu əməliyyatın həyata keçirilməsi ilə bağlı məsələyə toxunulmamışdır və dinimizdə əks olunmamışdır. Kitab və Sünnədə açıqlanmayan və hər dövrdə rast gəlinən yeni məsələlərin müddəaları İslam qanunları tərəfindən bu ümumi qaydaları və mühakimənin bilinən və heç bir şeyin cavabsız qalmadığı oxşar problemləri müqayisə edərək çıxarıldı. Orqan və toxuma transplantasiyasının təyin edilməsi üçün eyni prosedurun tətbiqi də məqsədəuyğundur. (7)

Ölümdən sonra orqan və (və ya) toxumaların bağışlanması prosesi bütün dünyada aktual olan məsələlərdəndir. Dünyada orqan köçürülmələrinin 85-90%-i meyitdən götürülən orqanların hesabına həyata keçirilir.(8)

Şəxs yeni vəfat etdikdə orqanlarını bağışlamaq kimi həssas məsələ ilə bağlı arzusunu müəyyən etmək çətin ola bilər. Bəzən isə vəfat edən şəxsin ailəsi də bu məsələ ilə bağlı vəfat edən yaxının arzularını bilmir. Vəfat edən şəxs sevilən şəxs olduğu halda isə ailəsi vəfat edən şəxsin itkisi ilə razılaşmır,itkinin təsirində qalır. Həmin anda isə ailə qərar verə biləcək vəziyyətdə olmur. Donor kartının yaradılması zamanı şəxsin ailəsi ilə məsləhətləşməsi məsələsi isə müzakirələrə səbəb olan önəmli məqamdır. Donor kartı isə vəfat edən şəxsin arzularını əks etdirir və bununla da nəqlin həyata keçirilməsi üçün ailələrə rəhbərlik edir, köməklik etmiş olur.

"İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" AR Qanunun 10-cu maddəsinə görə, meyitdən və ya ölüm vəziyyətində olan şəxslərdən transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsi yalnız həkim konsiliumu tərəfindən bioloji ölümün baş verilməsini və baş-beyin fəaliyyətinin tam dayanmasını ("beyin ölümünün") təsdiq edən inkaredilməz faktın olmasından sonra həyata keçirilə bilər. Meyitdən orqan transplantasiyası məqsədi ilə istifadə edilməsində beyin ölümünün diaqnozunun qoyulması əsas rol oynayır. Beyin ölmünün diaqnozunun qoyulmasındakı problem meyitdən donor kimi istifadəni çətinləşdirir və əl çatılmaz edir.

"İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" AR Qanunun 9-cu maddəsinə görə, Şəxs sağlığında donorluğa yazılı razılığını bildirərsə, ölümündən sonra transplantasiya məqsədi ilə onun orqan və (və ya) toxumalarından istifadə oluna bilər.Şəxs bu məsləyə münasibətini bildirməyibsə, ölümündən sonra yaxın qohumlarının və ya qanuni nümayəndələrinin icazəsi ilə onun orqan və (və ya) toxumalarının götürülməsinə yol verilir. Şəxs sağlığında donorluqdan yazılı şəkildə imtina edibsə, ölümündən sonra ondan transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsinə yol verilmir.

Elm və texnologiya inkişaf etdikcə transplantasiyaların həyata keçirilməsi orqan və toxumalara ehtiyac duyan şəxslərin sayının azalmasına müsbət təsir göstərəcəkdir. Dünyada hər il minlərlə insan orqan və toxumaların vaxtında köçürülməməsi və ehtiyac duyulan orqanların tapılmaması nəticəsində həyatını itirir. Lakin orqan banklarının yaradılması ilə orqan və toxumaya olan ehtiyac aradan qaldırılacaqdır. Orqan banklarına insanlar orqan və toxumalarını bağışlamaqla öldükdən sonra başqa şəxslərin həyatda qalmasına yardımçı olacaqdır. Orqan banklarının yaradılması üçün hüquqi baza ən qısa müddətdə yaradılmalıdır. Kütləvi informasiya vasitələrində maarifləndirmə tədbirlərinin aparılması ilə vətəndaşlara bu məsələ ilə bağlı geniş məlumat çatdırılmalıdır.

## Ədəbiyyat

1. https://www.organdonor.gov/about-dot/laws/history.html
2. https://www.organdonor.gov/about-dot/laws.html
3. http://www.tonv.org.tr/wp-content/uploads/2016/12/Organ-DokuAlA%CC%88%C2%B1nmasA%CC%88%C2%B1.pdf
4. http://www.tonv.org.tr/tr/yasal-duzenlemeler/
5. http://www.tonv.org.tr/wp-content/uploads/2016/12/ORGAN-NAKLII%CC%80%C2%87-VE-ORGAN-BAGI%CC%80%C2%86ISI%CC%80%C2%A7I-HAKKINDA-DII%CC%80%C2%87N-II%CC%80%C2%87 SI%CC%80%C2%A7LERII%CC%80%C2%87-YUI%CC%80%C2%88KSEK-KURULU- KARARI.pdf
6. http://www.tonv.org.tr/wp-content/uploads/2016/12/ORGAN-NAKLII%CC%80%C2%87-VE-ORGAN-BAGI%CC%80%C2%86ISI%CC%80%C2%A7I-HAKKINDA-DII%CC%80%C2%87N-II%CC%80%C2%87 SI%CC%80%C2%A7LERII%CC%80%C2%87-YUI%CC%80%C2%88KSEK-KURULU-KARARI.pdf

7. http://www.tonv.org.tr/wp-content/uploads/2016/12/Organ-Doku-AlA%CC%88%C2%B1nmasA%CC%88%C2%B1.pdf
8. The Euean Directorate for the Quality of Medicine and Healthcare https://www.edqm.eu/

**The importance of establishing an organ bank**

**Summary**

This article discusses the importance of human organ and (or) tissue transplantation. The importance of the establishment and use of the Organ Bank in the Republic of Azerbaijan is reflected. References were made to the positive results of international experience in matters related to organ banking.

**Важность создания банка органов**

**Резюме**

В данной статье обсуждается важность трансплантации органов и (или) тканей человека. Отражена важность создания и использования Банка Органов в Азербайджанской Республике. Были сделаны ссылки на положительные результаты международного опыта в вопросах, связанных с деятельностью банка органов.

**Rəyçi: h.f.d. G.Rzayeva**

Göndərilib: 08.04.2020 Qəbul edilib: 10.04.2020